# 2001-ci il mayın 31-də Bakı şəhərində imzalanmış «Müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarə olunması və qarşılıqlı yardım göstərilməsi sahəsində Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi və Rusiya Müəllif Cəmiyyəti arasında Saziş»in təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2001-ci il mayın 31-də Bakı şəhərində imzalanmış «Müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarə olunması və qarşılıqlı yardım göstərilməsi sahəsində Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi və Rusiya Müəllif Cəmiyyəti arasında Saziş» təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya tərəfini xəbərdar etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV.***

***Bakı şəhəri, 21 dekabr 2001-ci il.***

***№ 847.***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 2001-ci il, № 12, maddə 791)***